***AQİL ABBAS***

Ədalət .- 2025.- 22 avqust (№31).- S.3.

# ZELENSKİ TRAMPIN GÖRÜŞÜNƏ "QOHUM–ƏQRƏBALARI" İLƏ GETMİŞDİ

**Birinci görüşdə Tramp Zelenskini bərk danlamışdı. Geyiminə görə, özünü normal aparmadığına görə və sair və ilaxır. Hətta ekseprtlər deyir ki, Tramp Zelenskini Ağ Evdən qovub.**

**Məşhur bir anekdot var. Dovşan gəlir çayın bir tərəfində dayanıb o biri üzdə yaşayan Ayını çağırır:**

**- Mişa! Mişa!**

**Ayı çıxır:**

**- Nədi, a bala?**

**Dovşan ayıya xoşagəlməz sözlər deyir, Ayı da heç nə edə bilmir, çünki gərək çayı keçə.**



**Bu hərəkət bir neçə dəfə təkrar olunur. Axırda boğaza yığılan Ayı çayı keçib bir kolluqda gizlənir və Dovşanı gözləyir. Dovşan da bütün qohum-əqrəbalarını yığıb deyir ki, Ayının üzünə söyürəm mənə cavab qaytara bilmir. Və hamısını yığıb gətirir çayın kənarına.**

**Yenə çığırır:**

**- Mişa! Mişa!**

**Bu vaxt Ayı kolluqdan çıxır, yapışır Dovşanın boğazından və deyir:**

**- Nədi, ay bala?**

**Dovşan baxır ki, vəziyyət ağırdı, özü ilə gətirdiyi dovşanları göstərib deyir:**

**- Mişa dayı, bütün qohum-əqrəbanı yığıb gətirmişəm ki, səndən üzr istəyim!**

**İndi Zelenski də bu dəfə Trampın görüşünə Avropadakı "qohum-əqrəbalarını" da yığıb getmişdi. Üzünün güldüyündən belə məlum olurdu ki, deyəsən Tramp onu bağışlayıb.**